# "Kalevala" dastanı ilə türk xalq qəhrəmanliq dastanları arasında bənzər motivlər-advermə motivi

**Jalə Ağaverdi qızı Xəlilli**
*AMEA Folklor İnstitutunun*
*fəlsəfə doktoru proqramı üzrə doktorantı*
**E-mail:** xelillij@mail.ru

**Rəyçilər:** filol.ü.e.d., dos. A.S. Xəlillov,
filol.ü.f.d., dos. S.A. Xavəri

**Açar sözlər:** Kalevala, motiv, qəhrəmanlıq, dastan, advermə
**Ключевые слова:** Калевала, мотив, героизм, сага, именование
**Key words:** Kaleyala, motif, heroic, saga, naming

Türk xalq dastanlarda qəhrəmanın doğuluşundan ölümünə qədər olan bir həyat yolu təsvir edilir ki, bu qəlib şəkilində bütün dastanlarda eyni formada öz əksini tapır. Bu mənada dastanı baş qəhrəmanın həyatının bir bioqrafiyası kimidir. Qəhrəmanlıq dastanlarının baş qəhrəmanları xalqını xarici və daxili düşmənlərdən qoruyan, qeyri-adi qüvvələrlə mübarizə aparan alp, igid tiplərdir.

Qeyri-adi gücə-qüvvəyə malik dastan qəhrəmanlarının fərqli xüsusiyyətləri onların hələ doğumundan əvvəl müşahidə edilir. Nümunə kimi qəhrəmanın anasının hamilə olduğu zaman "aslan ürəyi" yemək istəməsi və aslan ürəyin yedikdən sonra yeddi gün yeddi gecə tərləyərək heç bir şey yemədən yatmasın göstərmək olar (6, s. 342).

Bu qeyri-adiliklər qəhrəmanın uşaqlıq illərində müşahidə edilir. Onlar anormal formada böyüyür və yetkinləşir, başlarına bəla gəldikdə ilahi güclər ona köməyə gəlir. Qəhrəmanların yuxuları da fərqli olur. Belə ki, onlar yatdıqları zaman həftələrlə, aylarla çəkir və bu zaman adətən onların başına müxtəlif bəlalar gəlir. Qısası dastanlarda xalqın sevdiyi, arzuladığı ideal insan tipi yaradılarkən onun ətrafında təsvir olan bütün hadisələr dastanların hamısında bənzər formada əks olunaraq dastan motivlərini yaratmışdır.

Türk dastanlarında müşahidə edilmiş ortaq motivlərin müxtəlif təsnifatları vardır ki, bunlar əsasən aşağıdakı kimidir.

1. Qəhrəmanın doğumu, uşaqlığı və böyümə dövri
2. Qəhrəmanın igidlikləri
3. Qəhrəmanın sevdiyi insanları xilas etməsi
4. Qəhrəmanın ölümü (6, s.345).

Verilən təsnifatdan göründüyü kimi dastanın strukturu əks olunub. Bu təsnifatın daxilində də kiçik amma bütün dastanlarda müəyyən qədər müşahidə edilən motivlər də vardır.

Dünyada yaşam, tarix və mədəniyyət səviyyəsindən asılı olmayaraq folkloru olmayan xalq yoxdur. Bütün xalqların milli təfəkkürünü, həyat tərzini, mübarizəsini əks etdirən özünəməxsus folklor nümunələri vardır. Bu mənada türk folklorunun da bədii ifadə forması dastan yaradıcılığı hesab edilir. Dastan türk xalq yaradıcılığına daxil olsa da onun təsirləri bütün dünya bədii yaradıcılığında müşahidə edilir. Belə ki, bir çox qeyri türk xalqlarında epos nümunələri bu təsirin nəticəsində yaranmışdır. Bunlara ərəblərin "Ərəb günləri", gürcülərin "Pələng dərili cəngavər", estonların "Kalevipeoq", fransızların "Roland", skandinavların "Edda", almanların "Nibelunqlar haqqında", finlərin "Kalevala" dastanlarını və s. misal göstərmək olar.

“Kalevala” Fin xalq dastanıdır. Bu dastanın yazıya alınması fin xalqının öz ana dilinin zənginliyini, tarixini, mədəniyyətini və sair sübut etməyə çalışması kimi tarixi bir prosesə təsadüf edir. Bilindiyi üzrə finlər uzun müddət İsveç, daha sonra isə Rusiyanın tərkibində müstəmləkə olmuşdur. XIX yüzillikdə azadlıq əldə etmiş və milli kimliklərini yenidən tanımaq və formalaşdırmaq uğrunda mübarizə aparmışlar. Bu mübarizə zamanı fin dilinin dövlət dili kimi yetərli olmayacağı haqqında fikirlər yaranır ki, bunun əksini sübut etmək üçün həkim və dilçi Elias Lennrot fin kəndlərini bir-bir gəzərək xalq ozanlarından “Kalevala” dastanının hissələrini toplayır. O, bu dastanı yazaraq göstərir ki, fin dili qədim və zəngindir.

Dastan manilərin, şeirlərin, mərsiyələrin olduğu run adlanan hissələrdən ibarətdir. Türk qəhrəmanlıq dastanları kimi “Kalevala” eposu da qəhrəmanının ailəsi, mənsubiyyəti və doğulması haqqında təsvirlərin verildiyi standart motivlərlə başlayır. “Göy üzündə yaşayan Havaların bakirəsi İlmatar sudan, küləkdən hamilə qalır və Väinämöinen dünyaya gəlir” (2, s. 1).

Göründüyü kimi qəhrəmanın doğulması möcüzəli formada baş verir və burada xristian dini inancının təsiri müşahidə edilir. Belə ki, xristian dini inancına görə İsa peyğəmbər bakirə Məryəmdən dünyaya gəlmişdir. Eyni motiv türk qəhrəmanlıq dastanı olan “Oğuz Kağan” da müşahidə edilir. Dastanda Oğuz Ay Kağanın gözlərini yarıb butanmasından sonra dünyaya gəlir. Oğuz bakirə, pak hesab olunan Aydan doğulur və Tanrının oğlu hesab edilir. Türk qəhrəmanlıq dastanlarında isə bu təsvirlər Oğuzun ilk insan olması, türklərin ulu əcdadı olması ilə bağlıdır. Bunda başqa qəhrəmanın anası göylərdə yaşayan ilahi varlıqdır. Belə təsvirlərə türk qəhrəmanlıq dastanlarda tez-tez rast gəlinir. Məsələn, “Kitabi-Dədə Qorqud” dastanında Təpəgöz ilahi varlıqdan dünyaya gəlmişdir. Eynilə “Oğuz Kağan” dastanında Oğuz Ay Kağandan dünyaya gəlir.

Dastanda həmçinin türk xalq dastanlarında da rast gəlinən uzun hamiləlik motivi vardır. Belə ki, qəhrəmanın anasının bətnində otuz yay, otuz qış günü keçirdiyi göstərilir. Körpə hələ ana bətnində dünyaya hansı bədəndə gəlməsini və dünyadakı hüznlü həyatda necə yaşaması haqqında düşüncələr içərisində təsvir edilir. Eynilə “Kitabi-Dədə Qorqud” dastanının ozanı Dədə Qorqudun da uzun müddətə dünyaya gəldiyi deyilir. Dastanda bu haqda heç bir məlumat olmasa da türk xalqları arasında Dədə Qorqudun pəri qızından olması və üç il ana bətnində qalması haqqında rəvayətlər vardır. Bunlar ozanın bilgili insan olacağının əvvəlcədən bəlli olduğunu göstərmək üçün olan şişirdilmiş təsvirlərdir.

Bənzər təsvirə “Manas” dastanında da rast gəlinir. Belə ki, dastanda Kanıkey Semeteyi on aya, Ay-Çörökün isə Seyteki on iki ay dünyaya gətirmişdir.

Kalevala və Türk dastanlarında müşahidə edilən motivlərdən biri də advermədir. Dastanlarda qeyri-adi xüsusiyyətlərə malik olan qəhrəmana “ad vermə” ritualı da fərqli icra edilir. Belə ki, qəhrəman ad alana qədər həqiqi kimliyini qazana bilməz, xaosdan kosmosa keçməz.

“Kalevala” dastanında üç qəhrəmanın Väinämöinen, Kullervo və Marjattanın adı verilsə də advermə motivi iki dəfə müşahidə edilir. Dastanda ozanın doğumu təsvir edilir, lakin ona ad verilərkən hər-hansı ritualın icrasından bəhs edilmir. O, doğularkən adı ilə doğulur. Ozanın adının etimologiyasına baxıldıqda mənasında “dəniz axıntısı” anlamının olduğu görülür. Bu da onun doğulduğu yerlə, yəni dənizlə bağlıdır. Ümumiyyətlə, bir çox dastanlarda “su” mənası ifadə edən anlayışlar vardır. Bu suyun kosmosun ən böyük təməlindən, dörd ünsürdən biri olması ilə bağlı ola bilər. Türklərdə su paklıq, arınmaq, təmizlənmək mənaları ifadə edən, yaradılmamış yeganə varlıqdır. “Yaradılış” dastanında dünya üzərində heç nə olmayanda belə suyun olduğu göstərilir.

“Dünya bir dəniz idi, nə göy vardı, nə bir yer,
Ucsuz bucaqsız, sonsuz sular içindəydi hər yer!”

“Kitabi-Dədə Qorqud” dastanında da dənizdən, sudan bir neçə boyda bəhs edilmişdir. “Salur Qazanın evi yağmalandığı” boyunda Qazan xan gördüyü yuxuya görə yola düşür və yolda bir çox varlıqlarla söhbət edir ki, onlardan biri sudur.

Çağlayaraq qayalardan çıxan su!
Ağac gəmiləri atıb-tutan su!
Həsən ilə Hüseynin həsrəti su!
Bağ ilə bostanın zinəti su!
Ayişə ilə Fatimənin baxışı su!
Şahanə atların içdiyi su!
Qızıl dəvələrin gəlib keçdiyi su!
Çevrəsində ağ qoyunların yatdığı su!
Yurdumdan bir xəbər bilirsənsə, de mənə!
Dərdli başım qurban olsun, suyum sənə!

Qazan xanın suya olan müraciətindən görünür ki, su müqəddəs mahiyyət daşıyır. Bundan başqa türklərdə “abı həyat” inancı vardır ki, bu inanca görə su insana ölümsüzlük bəxş edir, dərdlərə dərman olur (4, s. 775).

Suya “Oğuz Kağan” dastanında da rast gəlirik. Oğuz Kağanın gölün ortasında olan ağacın qovuğundakı yerin qızından bir oğlu olur. Bu üçüncü oğlunun adın Oğuz Kağan Tengiz qoyur. Qədim türk dilində dəniz, göl bütün su hövzələrinə “tengiz” deyilirdi. Kağanın üçüncü oğlunun adının belə adlanması həm anasının dənizin ortasında peyda olması ilə, həm də onun hakimiyyətinin dənizlər, sular kimi ucsuz bucaqsız olması diləyi ilə bağlıdır.

Su xristian dini inancında da önəmli yer tutur. Belə ki, adamın alnın islatmaqla və ya bütün bədənin suya batırmaqla icra edilən dini “arınma”, “yenidən doğma” mərasimidir. Uşaq dünyaya gəldikdən sonra vəftiz edilir və ona ad verilir.

Dastanda ikinci ad vermə motivinə 31-ci runda rast gəlinir. Burada Untamo qardaşı Kalervoya qarşı savaş elan etməsi, onu bütün xalqı ilə birlikdə məhv edilməsi və ancaq bir hamilə qadının sağ qalmasından bəhs edilir. Untamonun evinə aparılan qadın oğlan uşağı dünyaya gətirir. Uşağa anası tərəfindən Kullervo adı verilir, amma adın mənası və verilərkən heç bir ritual icra edilmir. Uşağa ana tərəfindən ad verilməsi türk xalq dastanlarında təsadüfi rast gəlinə biləcək hadisədir. Türk dastanlarında ana tərəfindən ad verilməsi əsasən ana yaşlı qadın olduğu halda mümkündür. Belə hal ancaq Tuva dastanlarında müşahidə edilir. “Boktu Kiriş və Bora Şeley” dastanında onların adını yaşlı anaları dua edərək verir (5, s. 324).

Dastanın sonuncu yəni əllinci rununda advermə motivi bakirə Marjjatanın dünyaya gətirdiyi uşağa ad verilərkən müşahidə edilir. Marjjatta qadağan olunmuş meyvəni yedikdən sonra hamilə qalır və anası, atası tərəfindən evdən qovulur. Dağda təkbaşına uşağı dünyaya gətirdikdən sonra Marjatta uşağı itirir. Ulduza, aya, günə sorduqdan sonra uşağın bataqlığa düşdüyün öyrənir. Uşaq böyüyür amma ona şeytan əməli kimi baxıb heç kim ad vermir. Anası ona çiçək, başqaları avara deyir. Vəftiz etmək üçün adam axtarılır və Virokannas adlı bir ağsaqqal tapılır. Lakin, o ad verməkdən imtina edir, uşağın atası tapılmalı olduğun bildirir. Ozan Väinämöinen isə atasının tapılmasının mümkünsüz olduğunu və bataqlıqdan gələn uşağın öldürülməsi lazım olduğun bildirir. Bundan sonra iki aylıq uşaq dilə gəlir və ozana acı sözlər

söyləyir. Bundan sonra ağsaqqal uşağı vəftiz edir və ona Kareliya kralı adı verilir. Türk dastanlarında olduğu kimi uşağa ad xalq arasında hörmət qazanmış ağsaqqal tərəfindən verilir. Məsələn, Dədə Qorqud qəhrəmanlıq göstərən igidlərə ad verir. Türk xalq qəhrəmanlıq dastanlarında uşaq adı adətən qəhrəmanlıq göstərdikdən sonra alır. Bu qəhrəmanlıqlar ancaq döyüş kimi deyil fərqli xüsusiyyətlərin göstərilməsi kimi də başa düşülə bilər. Məsələn, "Oğuz Kağan" dastanında Oğuz özü öz adını vermişdir. Bundan başqa "Alpamış" dastanının Başqırd variantında uşaq dünyaya gəldikdən iki gün sonra küçəyə çıxıb uşaqlarla oynamışdır. Bundan sonra ona ad verilmişdir. "Kalevala" dastanında da olduğu kimi Virokannas uşaq danışmağa başladıqdan sonra ad vermişdir.

Cəmiyyətdə uşağın dünyaya gəlişi həmişə yeni və sevinc dolu ümidlər doğurur. Uşağın varlığı həmişə müsbət hadisə hesab edilmiş, övladsızlıq xoş qarşılanmamış və hətta tənqid edilmişdir. Onlar nəslin, cəmiyyətin mədəni və iqtisadi həyatının davamı hesab edilirlər. Övladın dünyaya gəlməsi qədər həyatı boyu daşıyacağı, hətta ölümündən sonra da pis və ya yaxşı mənada xatırlanacağı adın verilməsinin də böyük əhəmiyyəti vardır. Verilən ad ilə uşaq xaosdan kosmosa keçərək şəxsiyyəti müəyyənləşir. Dastanlarda qəhrəmana ad verməklə onun sosial statusu və taleyi də müəyyənləşmiş olur. Dastanlarda qəhrəmanın ad alması üçün icra edilən bütün rituallar ad vermə motivin təşkil edir və türk xalq qəhrəmanlıq dastanları ilə bərabər bir çox dünya dastanlarında da bənzər şəkildə öz əksini tapır. Xüsusilə, Fin xalqına məxsus "Kalevala" dastanında ad vermə motivi bariz şəkildə özün biruzə verir. Burada da türk xalq qəhrəmanlıq dastanalarındakı kimi ad verən ağsaqqal obrazı vardır. Bundan başqa ad vermənin mahiyyətinə dayanan taleyin müəyyən edilməsi, qəhrəmanın xaosdan kosmosa keçməsi, sosial statusunun müəyyən edilməsi və s. öz əksini tapmışdır. "Kalevala" dastanında da ad aldıqdan sonra qəhrəmanın uşaqlıq dövri bitir və onun yetkinlik dövri başlayır.

**Məqalənin aktuallığı.** Şifahi xalq ədəbiyyatı nümunəsi olan dastanlarda müşahidə edilən advermə motivinin dünya dastanlarında təzahürü baxımından araşdırmalara səthi yanaşılmış və bu sahədə araşdırmaların əksəriyyəti digər ölkələrdə həyata keçirilmişdir. Bu səbəbdən advermə motivinin dünya dastanları ilə müqayisəli təhlil olunması tədqiqatın aktuallığı hesab oluna bilər.

**Məqalənin elmi yeniliyi.** Şifahi xalq ədəbiyyatı nümunəsi olan "Kalevala" dastanının azərbaycanlı alimlər tərəfindən lazımi qədər araşdırılmaması, hətta dastanın Azərbaycan dilinə tərcüməsinin olmamasını nəzərə aldıqda mövzunun araşdırılması tədqiqatın elmi yeniliyi hesab oluna bilər.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Tədqiqat türk xalq qəhrəmanlıq dastanları ilə dünya ədəbiyyatı nümunəsi olan "Kalevala" dastanı ilə advermə motivi baxımından müqayisəli araşdırılması folklor ədəbiyyatı sferası yönündən praktiki əhəmiyyətə malikdir. Araşdırma istər ədəbi elm sahələrində tədris materialı kimi istifadə oluna bilər.

## Ədəbiyyat

1. Abdurrezzak A.O. Türk dünyası mitolojik destanları ile Kalevala destanı üzerine mukayeseli bir araştırma, doktora tezi, Ankara: 2014.
2. Kalevala Fin dastanı I cild, Ankara: Balkanoğlu Matbaacılık Ltd., 1965.
3. Kalevala Fin dastanı., II cild, Ankara: Balkanoğlu Matbaacılık Ltd, 1968.
4. Kitabi-Dədə Qorqud, Bakı: Nurlan, 2009.
5. Metin Aça, Metin Ergun, Tıva Kahramanlık dastanları, Ankara: Akçağ, 2004.
6. Özkul Çobanoğlu, Epik Destan Geleneği, Ankara: Akçağ, 2003.

**Ж.А. Халилли**

## Похожие мотивы между «Калевала» и национальными героическими историями турецки - наминг мотив


## Резюме

В статье исследуется рекламный мотив, наблюдаемый между турецким народным героическим эпосом и эпосом «Калевала». Имя героя саги могло быть дано великой личностью или другим альпом. Иногда имя может быть дан самому герою. Сдаваясь герою, он переходит из хаоса в космос, и его личность определяется. Все это наблюдалось как в турецком народном героическом эпосе, так и в финском эпосе Калевала.


**Z.A. Khalilli**

## Sımılar motıves between Kalevala and the turkısh natıonal heroıc storıes – naming motive


## Summary

This article examines the naming motif observed between the Turkish folk heroic epics and the Kalevala epos. The name of the hero of the saga may have been given by a great personality or another alp. Sometimes the name may be given to the hero himself. By surrendering to the hero, he passes from chaos to space, and his identity is determined. All this has been observed both in the Turkish folk heroic epics and in the Finnish epos Kalevala.


**Redaksiyaya daxil olub:** 04.05.2021